“Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İndoneziya Respublikasının İşçi Qüvvəsi Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu”nun təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN FƏRMANI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2022-ci il dekabrın 14-də Bakı və Cakarta şəhərlərində imzalanmış “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İndoneziya Respublikasının İşçi Qüvvəsi Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında Anlaşma Memorandumu” təsdiq edilsin.

2. Bu Fərmanın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumu qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə İndoneziya Respublikası Hökumətinə bildiriş göndərsin.

İlham ƏLİYEV,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 3 iyun 2023-cü il
№ 2165

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İndoneziya Respublikasının İşçi Qüvvəsi Nazirliyi arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlıq haqqında

ANLAŞMA MEMORANDUMU

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə İndoneziya Respublikasının İşçi Qüvvəsi Nazirliyi, bundan sonra ayrılıqda “Tərəf”, birlikdə isə “Tərəflər” adlandırılacaq,

iki ölkə arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində fəal əlaqələr yaratmaq və inkişaf etdirmək niyyətlərini ifadə edərək,

Tərəflər arasında mövcud potensial əməkdaşlıq sahələrinə əsaslanaraq,

Tərəflərin ən qabaqcıl təcrübələrini paylaşmaqla, qarşılıqlı faydalı ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsi üçün öz səylərini birləşdirmək qərarını təsdiqləyərək,

aşağıdakılar barədə razılığa gəldilər:

Maddə 1

Məqsəd

Bu Anlaşma Memorandumunun məqsədi Tərəflər arasında əmək, məşğulluq və sosial müdafiə sahələrində əməkdaşlığı inkişaf etdirməkdir.

Maddə 2

Əməkdaşlıq sahələri

Tərəflər öz səlahiyyətləri çərçivəsində dövlətlərinin milli qanunvericiliyinə uyğun olaraq aşağıdakı əsas istiqamətlər üzrə əməkdaşlıq edirlər:

a. əmək normaları və standartları üzrə potensialın gücləndirilməsi;

b. sosial təminat sisteminin gücləndirilməsi;

c. peşə hazırlığı sisteminin inkişafı;

d. gənclərin məşğulluğu üçün bacarıqların inkişafı;

e. əmək bazarının təkmilləşdirilməsi;

f. əməkçi miqrantların sosial müdafiəsi.

Maddə 3

Əməkdaşlıq formaları

Tərəflər bu Anlaşma Memorandumunun aşağıdakı əməkdaşlıq formaları vasitəsilə həyata keçirilməsi barədə razılığa gəlirlər:

a. qarşılıqlı səfərlərin təşkili;

b. seminar, iclas, dialoq və təlimlər;

c. fikir, məlumat və sənədlərin mübadiləsi;

d. Tərəflərin iştirak etdiyi beynəlxalq forumlarda qarşılıqlı maraq kəsb edən məsələlər üzrə əlaqələndirmə və əməkdaşlıq;

e. Tərəflərin qarşılıqlı yazılı razılığına uyğun digər fəaliyyət formaları.

Maddə 4

Maliyyələşdirilmə

Bu Anlaşma Memorandumu çərçivəsində fəaliyyətlərin maliyyələşdirilməsi Tərəflərin müvafiq il üçün ayrılmış büdcə təxsisatlarından və müvafiq qanunvericiliklə qadağan olunmayan digər mənbələrdən həyata keçirilir.

Maddə 5

Birgə İşçi qrup

1. Tərəflər bu Anlaşma Memorandumunun həyata keçirilməsinin müzakirəsi, monitorinqi və qiymətləndirilməsi üçün Birgə İşçi qrup yaradırlar.

2. Birgə İşçi qrupun iclası Tərəflər arasında qarşılıqlı razılıq əsasında müəyyən olunan tarixdə və yerdə keçirilir.

Maddə 6

Cavabdeh qurumlar

Bu Anlaşma Memorandumunun həyata keçirilməsinin əlaqələndirilməsi və nəzarəti üzrə Tərəflərin cavabdeh qurumları aşağıdakılardır:

a. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən - Beynəlxalq əlaqələr şöbəsi;

b. İndoneziya Respublikasının İşçi Qüvvəsi Nazirliyi tərəfindən - Əməkdaşlıq bürosu.

Maddə 7

Dəyişikliklər

Bu Anlaşma Memorandumuna Tərəflərin qarşılıqlı razılığı ilə onun ayrılmaz tərkib hissəsi olan və 11-ci maddə ilə müəyyən olunan qaydada qüvvəyə minən ayrıca protokollar formasında rəsmiləşdirilən dəyişikliklər edilə bilər.

Maddə 8

Davranış qaydaları

Tərəflər bu Anlaşma Memorandumunun həyata keçirilməsində iştirak edən əməkdaşlarının ev sahibi ölkənin qanun və qaydalarına hörmətlə yanaşması və riayət etməsini və bu Anlaşma Memorandumuna hər hansı zidd fəaliyyətdən çəkinməsini təmin edir.

Maddə 9

Beynəlxalq müqavilələr üzrə öhdəlik

Bu Anlaşma Memorandumunun müddəaları Tərəflərin dövlətlərinin tərəf olduqları digər beynəlxalq müqavilələrdən irəli gələn hüquq və öhdəliklərə təsir etmir.

Maddə 10

Fikir ayrılıqlarının həll edilməsi

Bu Anlaşma Memorandumunun təfsiri və/və ya tətbiqi ilə bağlı hər hansı fikir ayrılığı Tərəflər arasında danışıqlar və/və ya məsləhətləşmələr yolu ilə dostcasına həll edilir.

Maddə 11

Qüvvəyəminmə, müddət və xitamolunma

1. Bu Anlaşma Memorandumu onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsi barədə Tərəflərin diplomatik kanallar vasitəsilə göndərdikləri sonuncu yazılı bildirişin alındığı tarixdən qüvvəyə minir.

2. Bu Anlaşma Memorandumu 3 (üç) il müddətinə bağlanılır və Tərəflərin qarşılıqlı yazılı razılığı əsasında növbəti 3 (üç) il müddətinə uzadıla bilər.

3. Hər bir Tərəf bu Anlaşma Memorandumunun müddətinin bitməsinə azı 60 (altmış) gün qalmış onu ləğv etmək niyyəti barədə yazılı şəkildə diplomatik kanallar vasitəsilə bildiriş verməklə bu Anlaşma Memorandumunu istənilən vaxt ləğv edə bilər.

4. Bu Anlaşma Memorandumunun ləğv edilməsi, Tərəflər başqa qərar vermədikləri təqdirdə davam edən layihənin və ya əvvəlcədən hazırlanmış proqramlarının yekunlaşdırılmasına təsir etmir.

Qeyd olunanların təsdiqi kimi müvafiq qaydada səlahiyyətləndirilmiş aşağıda imza edənlər bu Anlaşma Memorandumunu imzaladılar.

Bakı və Cakarta şəhərlərində videokonfrans vasitəsilə 2022-ci il 14 dekabr tarixində Azərbaycan, İndoneziya və ingilis dillərində olmaqla, iki əsl nüsxədə imzalanmışdır, bütün mətnlər bərabər autentikdir. Bu Anlaşma Memorandumunun təfsiri zamanı fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan mətnə üstünlük verilir. Bir Tərəfin imzaladığı mətnlər digər Tərəfin imzalanması üçün rəsmi kanallar vasitəsilə mübadilə edilir.

Azərbaycan Respublikasının	**İndoneziya Respublikasının**
Əmək və Əhalinin Sosial Müdafiəsi	**İşçi Qüvvəsi Nazirliyi**
Nazirliyi adından	**adından**
Sahil BABAYEV,	**İda FAUZİYA,**
nazir	*nazir*